# İcbari tibbi sığortaya keçid vətəndaşların müasir və keyfiyyətli tibbi xidmətinin təminidir




Ölkəmizdə həyata keçirilən inkişaf strategiyasının başlıca məqsədi vətəndaş firavanlığına, sosial rifah halının yaxşılaşmasına istiqamətlənib. Son dövrlərdə Azərbaycan Prezidenti İlham Əliyev tərəfində əhalin sağlamlığının və rifah halının yüksəldilməsi ilə bağlı imzaladığı fərman və sərəncamlar bu sahədə tədbirlərin gücləndirilməsinə, yeni addımların atılmasına geniş imkanlar açır. Azərbaycanda səhiyyə sisteminin yenidən qurulması, əhalinin sağlamlığının daha yaxşı təşkili, bu sahədə yeni texnologiyaların tətbiqi və yeni kadr potensialının hazırlanmasını özündə əks etdirən dövlət proqramları tibbi xidmətin səviyyəsini yüksəldib.

Səhiyyə sahəsində aparılan islahatların davamı olaraq, icbari tibbi sığortanın tətbiqi hökumətin səhiyyə sahəsində apardığı islahatların tərkib hissəsidir. İcbari tibbi sığortaya keçid ölkə vətəndaşlarının tibbi xidmətlərə əlçatanlığını artırır. İcbari tibbi sığorta müasir və keyfiyyətli tibbi xidməti təmin edən səhiyyənin maliyyələşdirilməsinin yeni formasıdır. Bu sistemin, sonradan genişləndirilə biləcək baza zərfi çərçivəsində həyata keçirilməsi nəzərdə tutulur. Bu layihənin məqsədi səhiyyənin maliyyələşdirilməsini təkmilləşdirmək, habelə, əhaliyə etibarlı, keyfiyyətli, səmərəli tibbi xidmətlərin göstərilməsinə zəmanət verəcək universal və dayanıqlı tibbi sığortanı təmin etməkdir.

Ölkəmizdə icbari tibbi sığorta ilə bağlı pilot layihələr həyata keçirilir. Hazırda icbari tibbi sığortanın 1829 tibbi xidməti əhatə edən baza zərfi əsasında Mingəçevir şəhərində, Yevlax və Ağdaş rayonlarında pilot layihə həyata keçirilir. Gələcəkdə isə, icbari tibbi sığortanın mərhələli şəkildə bütün ölkə üzrə tətbiq edilməsi planlaşdırılır.

Artıq icbari tibbi sığorta haqqının məbləği də müəyyənləşdirilib. Belə ki, bu haqq muzdlu işçilərin əmək haqqından tutulacaq. Bu zaman əmək haqqının 2 faizi işçidən, 1 faizi isə işəgötürəndən olmaqla cəmi 3 faiz ödəniş tələb ediləcək. İşləməyən vətəndaşlar isə illik 120 manat ödəməklə sığorta paketini əldə edə biləcəklər. Bir sıra kateqoriyadan olan vətəndaşların icbari tibbi sığortası tam olaraq dövlət hesabına təmin ediləcək. Bunlar 18 yaşadək uşaqlar, əyani təhsil alan tələbələr, pensiyaçılar, sosial müavinət alanlar, hamilə qadınlar və digərləridir.

İcbari tibbi sığortanın baza zərfinə 18 növ ilkin səhiyyə xidməti, 6 növ təcili və təxirəsalınmaz yardım xidməti, 480 növ ambulator, 677 stasionar, 459 laborator, 166 növ həyati vacib, dəyəri yüksək olan xidmətlər daxil edilir. Bu zaman təcili və təxirəsalınmaz tibbi xidmət bütün əhali üçün pulsuz olmaqla, sığorta tələb edilmədən dövlət tərəfindən təklif ediləcək. Baza zərfinə daxil edilən həyati vacib, dəyəri yüksək tibbi xidmətlər müəyyənləşdirilərkən, ölüm səbəbləri arasında öndə gedən xəstəliklər nəzərə alınıb. Belə ki, qapalı və açıq ürək əməliyyatları, o cümlədən, stend qoyulması, damar əməliyyatları sığorta paketinə daxil edilib, çünki ürək-damar xəstəlikləri ölüm səbəbləri arasında yüksək yer tutur. Müxtəlif orqanların transplantasiyası əməliyyatları, hələlik, icbari tibbi sığorta paketinə daxil edilməyib. Azərbaycanda işləyən xarici vətəndaşlar da icbari tibbi sığortadan yararlana biləcəklər. Bunun üçün əsas şərt onların vətəndaşı olduqları ölkə ilə qarşılıqlı müqavilənin olmasıdır.

İcbari tibbi sığorta xəstəliklərin erkən mərhələdə aşkar edilməsində, daha ağır mərhələyə keçidinin qarşısının alınmasında, ən ucqar kəndlərdə belə yaşayan əhalinin keyfiyyətli tibbi xidmətlərlə təmin olunmasında əhəmiyyətli rol oynayır.

***Nəzakət ƏLƏDDİNQIZI***

**Səs.- 2018.- 29 sentyabr.- S.12.**